AZƏRBAYCAN RESPUBLİKASI
ELM VƏ TƏHSİL NAZİRLİYİ

Azərbaycan Dövlət İqtisad Universiteti

**Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi**
**Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)**
**Fakültə: Biznez və Menecment**

**Təsdiq edirəm:**
**"Biznes və logistika" kafedrasının**
**müdiri: dos. Əliyev M.Ə.**
**09.09. 2025-ci il**

**"Strateji idarəetmə" fənni üzrə**
**İŞÇİ TƏDRİS PROQRAMI (Sillabus)**

## I. Fənn haqqında məlumat

| | |
|---|---|
| **Fənnin kodu:** | **00842** |
| **Fənnin növü:** | **əsas** |
| **Tədris ili:** | **2025/2026** |
| **Tədris semestri:** | **Payız** |
| **Fakültə:** | **İqtisadiyyat və idarəetmə** |
| **Qruplar:** | **510, 524** |
| **Tədris yükü:** | **90 saat (mühazirə/məşğələ -30/60)** |
| **Kredit sayı:** | **6 (altı)** |
| **Kafedra:** | **Biznes və logistika** |

## II. Müəllim haqqında məlumat

| | |
|---|---|
| **Fənni tədris edən müəllim:** | i.ü.f.d., dos. Rüstəmov P.H. |
| **E-mail ünvanı:** | rustamovparviz@yahoo.com |
| **İş telefonu:** | (012)4400562, (012)4416521 |
| **Tələbələr üçün qəbul vaxtları:** | **çərşənbə günləri, saat 11:00-13:00** |

## III. Fənnin təsviri

«Strateji idarəetmə» kursunun əsas məqsədi – təşkilati strategiyaları, xarici və daxili mühit analizinin nəticələri çərçivəsində strategiyaların formalaşdırılması metodlarını öyrənir, icra edilən strategiyaların şirkətin məqsədlərinə nə dərəcədə cavab verdiyini analiz edir. Strateji idarəetmə prosesinin sosial məsuliyyət və etik dəyərlər içərisində həyata keçirilməsinin əsasprinsiplərini təqqiq edir.

Bu fənn tələbələrə düşünmə yolunu öyrətmək, yaşadıqları cəmiyyəti, dünyanı daha yaxşı anlamağa və düzgün qərar verə bilmələrinə kömək etmək və onların ölkə üçün rasional, məlumatlı, yüksək iqtisadi təfəkkürlü iqtisadçı, vətəndaş kimi formalaşmasına nail olmaqdır.

Kursun bütün mövzuları bir sistem şəklində strateji idarəetmə nəzəri-praktiki təhlilinə həsr edilmişdir. Kursun strukturu və məzmunu elə planlaşdırılmışdır ki, tələbələr strateji idarəetmənin nəzəri-praktiki əsaslarına yiyələnəcək, sonrakı tədris fənlərini öyrənərkən bu kurs daxilində qazandıqları bilik və bacarıqları daha da möhkəmləndirəcək, həmçinin müstəqil iş prosesində strateji idarəetmənin nəzəri-praktiki təcrübəsi haqqında təsəvvürlərini dərinləşdirə və genişləndirə biləcəklər.

Strateji menecment fənninin tədrisinin başlıca məqsədi tələbələrdə müasir idarəçilik təfəkkürünü formalaşdırmaq və inkişaf etdirməkdir. Digər tərəfdən, strateji menecmentin keçdiyi tarixi dövrlər, rəqabparılması yollarını, işgüzar təşkilatın ayrı-ayrı istiqamətlər üzrə strategiyanı hazırlamaq üzrə biliklərə yiyələnməsinə nail olmaq əsas hədəflərdəndir. Eyni zamanda qeyri-standart və gözlənilməyən situasiyalarda yaradıcı qərarlar qəbul etmək, gələcək mütəxəssislərdə strateji və innovativ düşüncə tərzi formalaşdırmaq bu fənnin tədrisinin mühüm məqsədlərindən sayılır.

«Strateji idarəetmə» kursunun öyrənilməsi nəticəsində strateji menecmentin elmi-nəzəri və metodoloji əsasları, strategiyanın məktəbləri, strateji idarəetmədə gözlənilməyən dəyişikliklərə idarəetmə reaksiyası, bazar mühitinin təhlil olunma məsələləri, rəqabət mühitinin təhlil olunması istiqamətləri, xarici iqtisadi fəaliyyətin strategiyası, təşkilatdaxili münaqişə və müqavimətlərin həll edilməsi strategiyası, işgüzar təşkilatların niyyət və məqsədləri barədə ətraflı biliklərin öyrədilməsi nəzərdə tutulur.

## IV. Fənnin məqsədi və vəzifələri

Kursun tədrisində məqsəd tələbələrə müxtəlif bazar tipləri şəraitində strateji idarəetmənin təşkili və qərar qəbuletmə xüsusiyyətlərini dərk etməyə və anlamağa yardım etmək, nəzəri bilikləri və praktiki alətləri birləşdirməklə tələbələrdə strateji idarəetmə sahəsində analitik təhlil bacarıqları formalaşdırmaqdır.

Fənnin tədrisi qarşısında duran vəzifələr aşağıdakılardır:

- strateji idarəetmə və onun xüsusiyyətləri barədə tələbələrdə tam təsəvvür formalaşdırmaq;
- Sənaye müəssisələrində strateji menecmentin təhlili ilə bağlı əsas elmi yanaşmaları və modelləri tələbələrə təqdim etmək;
- Sənaye müəssisələrində strateji idarəetmənin təşkilinə təsir göstərən amilləri və belə təsirlərin qiymətləndirlməsi üsullarını başa salmaq;
- Sənaye müəssisələrində strateji idarəetmənin modelləşdirilməsi və qərarqəbuletmə mexanizmlərini tələbələrə aşılamaq;
- Sənaye müəssisələrində strateji idarəetmənin təhlili, onun formalaşmasına olan təsirlərin qiymətləndirilməsi, habelə dövlətin tənzimləmə siyasətinin işlənilməsi sahəsində tələbələrə zəruri bacarıq və qabiliyyətlərin aşılanması.

## V. Fənnin tədris metodologiyası

Bu fənnin tədrisi prosesində mühazirələrin oxunması, interaktiv müzakirələrin aparılması, komanda şəklində layihələrin icrası, kiçik qruplarda iş, işgüzar oyunlar, xüsusi nümunələrin (keys-stadilər) öyrənilməsi və təhlili, esse yaxud sərbəst işlərin yazılması və test tapşırıqların yerinə yetirilməsi kimi geniş çeşiddə tədris və təlim üsullarından istifadə edilir.

Bundan əlavə tədris və təlim prosesində xarici və yerli iqtisadi ədəbiyyatdan, habelə beynəlxalq və yerli mediadan (internet resurslarından) götürülmüş məqalələrin, real nümunələrin və xüsusi keyslərin təhlilinə, müzakirəsinə və məntiqi nəticələr çıxarılmasına xüsusi diqqət ayrılacaq. Verilən biliklərin tətbiqi bacarıqlarının formalaşdırılması üçün tələbələr mövzuya uyğun seçilmiş tapşırıqları həll edəcəklər.

Hər bir yeni mövzunun tədrisi öncəsi tələbələr müəyyən olunmuş mətnləri və onlara təqdim edilmiş (tapşırılmış) digər qiraət materialları ilə tanış olmalıdırlar.

## VI. Öyrənmənin nəticələri:

Kursun tədrisi başa çatandan və bütün mövzular mənimsənildikdən sonra tələbələr:

**Bilməlidirlər:**

- strateji idarəetmənin nəzəriyyələrini;
- strateji idarəetmənin əsas səciyyəvi xüsusiyyətlərini;
- strateji idarəetməyə təsir göstərən xarici və daxili amilləri;
- müasir idarəetmə sisteminin quruluşunu müəyyən edən şərt və amilləri;
- strateji idarəetmədə müəssisənin quruluşunun öyrənilməsi və təhlili üsullarını;
- strateji idarəetmədə işgüzar davranışlarının xüsusiyyətlərini;
- hökumətin iqtisadi siyasətinin sahə bazarlarının quruluşuna və firma davranışlarına təsir istiqamətlərini;
- strateji idarəetmədə dövlətin antiinhisar və tənzimləmə siyasətinin əsas istiqamətlərini.

**Bacarmalıdırlar**:

- strateji idarəetmədə olan yanaşmaları fərqləndirməyi;
- strateji idarəetmədə səmərəlilik amillərini qiymətləndirməyi;

- strateji idarəetmə təşkilat quruluşunu təhlil etməyi və qiymətləndirməyi;
- strateji idarəetmə iqtisadi göstəricilərini hesablamağı və konkret sahələrə tətbiq etməyi;
- strateji idarəetmə işgüzar davranışlarının analitik modellərini işləməyi;
- strateji idarəetmədə qərarqəbuletmə modellərini qurmağı.

**VII. Prerekvizitlər**

Yoxdur.

**VIII. Fənnin mühazirə mövzuları**

Fənn 15 mühazirə mövzusundan ibarətdir. 15 mövzunun hər birinə 4 saat (2 saat mühazirə və 2 saat seminar-məşğələ olmaqla) vaxt ayrılır.

1. Strateji menecmentin nəzəri əsasları.
2. Strategiyanın məktəbləri.
3. Əmtəə və xidmət bazarlarının inkişaf strategiyaları.
4. Strateji marketinq.
5. Cəmiyyətə münasibətdə firmanın strategiyasının alternativləri.
6. İşgüzar təşkilatların niyyəti və məqsədləri.
7. Strateji idarəetmə konsepsiyası və gözlənilməyən dəyişikliklərə idarəetmə reaksiyası.
8. Strateji planaşdırma.
9. Sənaye müəssisələrində strategiyaların əsas elementləri.
10. Sənaye müəssisələrində strateji təhlil metodlarının tətbiqi.
11. Sənaye müəssisələrin strateji vəziyyəti və onun təhlili.
12. Sənaye müəssisələrində strategiyaların reallaşdırılması.
13. Sənaye müəssisələrində strategiyaların formalaşması istiqamətləri.
14. Təşkilatdaxili münaqişə və müqavimətlərin həll edilməsi strategiyası.
15. Strateji idarəetmədə korporativ mədəniyyət.

**X. Fənnin mühazirə mətnləri**

Fənnin bütün mövzuları üzrə mühazirə mətnləri, müzakirə sualları və tapşırıqlar, habelə müxtəlif növ məşğələ materialları elektron formatda Universitetin saytında “Virtual universitet” bölməsində (www.vu.aseu.az ) yerləşdirilir.

**III. Tələb olunan dərsliklər və dərs vəsaitləri**

**Əsas ədəbiyyat:**

1. Azərbaycan Respublikası Mülki Məcəlləsi. Bakı. 2015
2. Abbasov İ.M., Sadıqov R.F. Menecment. Bakı: Bakı Biznes Universitetinin nəşriyyatı. 2013.
3. Axundov M.Ə. Strateji idarəetmə. Bakı: 2001.
4. Əliyev M.Ə., Həmidov H.İ. Biznesdə insan resurslarının idarə edilməsi. Bakı: Azərbaycan Dövlət İqtisad Universitetinin nəşriyyatı, 2013.
5. Kərimov X.Z. Strateji idarəetmə: metodlar və praktika. Bakı: «Elm», 2006.
6. Şahbazov K.A., Məmmədov M.H., Həsənov H.S. Menecment. Bakı: «Təhsil» EİM, 2005.
7. Quliyev T. Ə. Menecmentin (idrəetmənin) əsasları. Bakı: «Nağıl evi» nəşriyyatı, 2001.
8. Coşkun R., Əhmədov F. Strateji idarəetmə. Bakı: "UNEC" Nəşriyyatı, 2023.

**Əlavə ədəbiyyat:**

1. Герчикова И.Н. Менеджмент. – Москва. Банки и биржи,1997г.
2. Забелин П.В., Моисеева Н.К. Основы стратегического управления. - М.,1997.
3. Стоянова Е.С., Штерн М.Т. Финансовый менеджмент для практиков. Москва. Перспектива, 1998.
4. Ковалев Г.Д. Основы инновационного менеджмента. - М., ЮНИТИ,1999.
5. Фатхуддинов Р.А. Стратегический менеджмент.- М.1999 г.

Hər bir mövzu ilə bağlı əlavə ədəbiyyat və oxu materialları mühazirədə qeyd olunur.

## XI. Mövzuların məzmunu və tədris-tematik bölgüsü

### FƏNN MÖVZULARI VƏ MƏQSƏDLƏR

| Həftə | Mövzuların adı | Mövzunun əsas məzmunu | Ədəbiyyat |
|---|---|---|---|
| 1 | **Strateji menecmentin nəzəri əsasları.** | Strateji menecmentin mahiyyəti və məzmunu.Strateji idarəetmənin məqsədi. Strateji idarəetmənin vəzifələri.Strateji menecmentdə qərarların qəbul edilməsi məsələləri. Strateji menecmentin özünəməxsus xüsusiyyətlərinin yeri və rolu | 1. Şahbazov K.A., Məmmədov M.H., Həsənov H.S. Menecment. Bakı: «Təhsil» EİM, 2005. (fəsil 19);<br>2. Quliyev T. Ə. Menecmentin (idrəetmənin) əsasları. Bakı: «Nağıl evi» nəşriyyatı, 2001. (fəsil 23);<br>3. Coşkun R., Əhmədov F. Strateji idarəetmə. Bakı: "UNEC" Nəşriyyatı, 2023. (fəsil 1). |
| 2 | **Strategiyanın məktəbləri.** | Strategiyanın əhəmiyyəti. Strateji idarəetmənin konsepsiyaları. Strateji idarəetmədə konsepsiyaların müəyyənləşdirilməsi mexanizmi. Strateji idarəetmədə «gələcəyin ssenariləri» alqoritmlərinin işlənib hazırlanması mərhələləri. Strategiyaların seçilməsinə təsir edən amillərin yeri və rolu. | 1. Şahbazov K.A., Məmmədov M.H., Həsənov H.S. Menecment. Bakı: «Təhsil» EİM, 2005. (fəsil 19);<br>2. Quliyev T. Ə. Menecmentin (idrəetmənin) əsasları. Bakı: «Nağıl evi» nəşriyyatı, 2001. (fəsil 23);<br>3. Coşkun R., Əhmədov F. Strateji idarəetmə. Bakı: "UNEC" Nəşriyyatı, 2023. (fəsil 3-4). |
| 3 | **Əmtəə və xidmət bazarlarının inkişaf strategiyaları.** | Strateji menecmentdə bazar anlayışı. Strateji menecmentdə bazarın seqmentliyinin müəyyənləşdirilməsi məsələləri. Strateji menecmentdə bazar seqmentinin cazibədarlığının səciyyəvi cəhətləri. Strateji menecmentdə bazar seqmentinin potensial üstünlüklərin xarakteristikası. Strateji menecmentdə bazar məqsədlərinin seçilməsinin alternativ istiqamətləri. | 1. Şahbazov K.A., Məmmədov M.H., Həsənov H.S. Menecment. Bakı: «Təhsil» EİM, 2005. (fəsil 19);<br>2. Quliyev T. Ə. Menecmentin (idrəetmənin) əsasları. Bakı: «Nağıl evi» nəşriyyatı, 2001. (fəsil 23);<br>3. Coşkun R., Əhmədov F. Strateji idarəetmə. Bakı: "UNEC" Nəşriyyatı, 2023. (fəsil 8). |
| 4 | **Strateji marketinq.** | Strateji marketinqin mahiyyəti və məzmunu. Strateji marketinqin hazırlanması prosesləri. Elektron marketinqdə ölçü vahidlərinin yeri və rolu. Elektron vasitələrlə marketinq tədqiqatlarının aparılması məsələləri. Elektron marketinqin marketinq strategiyasına təsir etmə üsulları. | 1. Şahbazov K.A., Məmmədov M.H., Həsənov H.S. Menecment. Bakı: «Təhsil» EİM, 2005. (fəsil 19);<br>2. Quliyev T. Ə. Menecmentin (idrəetmənin) əsasları. Bakı: «Nağıl evi» nəşriyyatı, 2001. (fəsil 23);<br>3. Coşkun R., Əhmədov F. Strateji idarəetmə. Bakı: "UNEC" Nəşriyyatı, 2023. (fəsil 8). |
| 5 | **Cəmiyyətə münasibətdə firmanın** | Cəmiyyətə münasibətdə firmanın strategiyasının mahiyyəti və məzmunu. Cəmiyyətə münasibətdə | 1. Şahbazov K.A., Məmmədov M.H., Həsənov H.S. Menecment. Bakı: «Təhsil» EİM, 2005. |

| | | | |
|---|---|---|---|
| | **strategiyasının alternativləri.** | firmanın strategiyasının seçilməsi mərhələləri. Menecmentdə strategiyanın seçilməsinə təsir edən amillərin əhəmiyyəti. Strateji Təssərüfatçılıq Zonalarının əsas xarakterik cəhətləri. Strateji Təssərüfatçılıq Zonalarının müəyyənedici meyarları. | (fəsil 19);<br>2. Quliyev T. Ə. Menecmentin (idrəetmənin) əsasları. Bakı: «Nağıl evi» nəşriyyatı, 2001. (fəsil 23);<br>3. Coşkun R., Əhmədov F. Strateji idarəetmə. Bakı: "UNEC" Nəşriyyatı, 2023. (fəsil 6). |
| 6 | **İşgüzar təşkilatların niyyəti və məqsədləri.** | İşgüzar təşkilatlarda niyyət və məqsədlərin mahiyyəti və məzmunu. İşgüzar təşkilatlarda strateji niyyət konsepsiyası. İşgüzar təşkilatlarda maliyyə məqsədlərin əsas istiqamətləri. İşgüzar təşkilatlarda strateji məqsədlərin əsas istiqamətləri. İşgüzar təşkilatlarda məqsədlərin idarə olunması mexanizmi. | 1. Şahbazov K.A., Məmmədov M.H., Həsənov H.S. Menecment. Bakı: «Təhsil» EİM, 2005. (fəsil 19);<br>2. Quliyev T. Ə. Menecmentin (idrəetmənin) əsasları. Bakı: «Nağıl evi» nəşriyyatı, 2001. (fəsil 23);<br>3. Coşkun R., Əhmədov F. Strateji idarəetmə. Bakı: "UNEC" Nəşriyyatı, 2023. (fəsil 2). |
| 7 | **Strateji idarəetmə konsepsiyası və gözlənilməyən dəyişikliklərə idarəetmə reaksiyası.** | Gözlənilməyən dəyişikliklərə idarəetmə reaksiyasının əhəmiyyəti. Sənaye müəssisələrində strateji görmənin və fəaliyyət istiqamətinin müəyyənləşdirilməsi məsələləri. Gözlənilməyən dəyişikliklərə idarəetmə reaksiyasının parametrləri. Gözlənilməyən dəyişikliklərə idarəetmə reaksiyasının tipləri. Gözlənilməyən dəyişikliklərə idarəetmə reaksiyasının əsas elementləri. | 1. Şahbazov K.A., Məmmədov M.H., Həsənov H.S. Menecment. Bakı: «Təhsil» EİM, 2005. (fəsil 19);<br>2. Quliyev T. Ə. Menecmentin (idrəetmənin) əsasları. Bakı: «Nağıl evi» nəşriyyatı, 2001. (fəsil 23); |
| 8 | **Strateji planaşdırma.** | Strateji planaşdırmanın mahiyyəti və məzmunu. Strateji planaşdırmanın formaları. Strateji planlaşdırma zamanı strateji şəraitin qiymətləndirilməsi. Strateji alternativlərin seçilməsi. Sosial-iqtisadi proseslərin tənzimlənməsində strayeji planlaşdırmanın yeri və rolu. | 1. Şahbazov K.A., Məmmədov M.H., Həsənov H.S. Menecment. Bakı: «Təhsil» EİM, 2005. (fəsil 19);<br>2. Quliyev T. Ə. Menecmentin (idrəetmənin) əsasları. Bakı: «Nağıl evi» nəşriyyatı, 2001. (fəsil 23);<br>3. Coşkun R., Əhmədov F. Strateji idarəetmə. Bakı: "UNEC" Nəşriyyatı, 2023. (fəsil 1, 11). |
| 9 | **Sənaye müəssisələrində strategiyaların əsas elementləri.** | Sənaye müəssisələrində strateji təyinatının müəyyən edilməsi məsələləri. Sənaye müəssisələrində strateji məqsədlərinin müəyyən edilməsi istiqamətləri. Sənaye müəssisələrində strategiyasının hazırlanması. Sənaye müəssisələrində strategiyasının formalaşmasına təsir göstərən amillərin yeri və rolu. Sənaye müəssisələrində uğurlu | 1. Şahbazov K.A., Məmmədov M.H., Həsənov H.S. Menecment. Bakı: «Təhsil» EİM, 2005. (fəsil 19);<br>2. Quliyev T. Ə. Menecmentin (idrəetmənin) əsasları. Bakı: «Nağıl evi» nəşriyyatı, 2001. (fəsil 23);<br>3. Coşkun R., Əhmədov F. Strateji idarəetmə. Bakı: "UNEC" Nəşriyyatı, 2023. (fəsil 13). |

| | | | |
|---|---|---|---|
| | | strategiyanın əsas meyarları və onların işlənməsinə yanaşmalar. | |
| 10 | **Sənaye müəssisələrində strateji təhlil metodlarının tətbiqi.** | Sənaye müəssisələrini əhatə edən əsas iqtisadi göstəricilərin əhəmiyyəti. Beş rəqabət qüvvəsi modeli. Sənaye müəssisələrində rəqabət strukturunun və fəaliyyət mühitini dəyişilinəsi səbəbləri. Sənaye müəssisələrində rəqiblərin fəaliyyətinin reaksiyalarının pronozlaşdırılması və rəqabətə aparan uğurun əsas amilləri. Sahənin cəlbediciliyi və perspektivləri. | 1. Şahbazov K.A., Məmmədov M.H., Həsənov H.S. Menecment. Bakı: «Təhsil» EİM, 2005. (fəsil 19);<br>2. Quliyev T. Ə. Menecmentin (idrəetmənin) əsasları. Bakı: «Nağıl evi» nəşriyyatı, 2001. (fəsil 23);<br>3. Coşkun R., Əhmədov F. Strateji idarəetmə. Bakı: "UNEC" Nəşriyyatı, 2023. (fəsil 5). |
| 11 | **Sənaye müəssisələrin strateji vəziyyəti və onun təhlili.** | SWOT təhlili metodu. Dəyərlər zənciri konsepsiyası. Sənaye müəssisələrində məsrəflər üzrə rəqabət üstünlüyünə nail otmması üçün strategiyanın seçilməsi. Sənaye müəssisələrin rəqabət qabiliyyətinin qiymətləndirilməsi. Sənaye müəssisələrin qarşılaşdığı strateji problemlər. | 1. Şahbazov K.A., Məmmədov M.H., Həsənov H.S. Menecment. Bakı: «Təhsil» EİM, 2005. (fəsil 19);<br>2. Quliyev T. Ə. Menecmentin (idrəetmənin) əsasları. Bakı: «Nağıl evi» nəşriyyatı, 2001. (fəsil 23);<br>3. Coşkun R., Əhmədov F. Strateji idarəetmə. Bakı: "UNEC" Nəşriyyatı, 2023. (fəsil 4). |
| 12 | **Sənaye müəssisələrində strategiyaların reallaşdırılması.** | Sənaye müəssisələrində strategiyaların yerinə yetirilməsi prosesi. Sənaye müəssisələrində strateji menecmentin yerinə yetirilməsi. Sənaye müəssisələrində idarəetmə strukturun strategiyayalara uyğunlaşdırılınası. Sənaye müəssisələrində təşkilati struktur növlərinin strateji üstünlükləri və zəif cəhətləri. Sənaye müəssisələrində təşkilati strukturlarının təkmilləşdirilməsinin müasir istiqamətləri | 1. Şahbazov K.A., Məmmədov M.H., Həsənov H.S. Menecment. Bakı: «Təhsil» EİM, 2005. (fəsil 19);<br>2. Quliyev T. Ə. Menecmentin (idrəetmənin) əsasları. Bakı: «Nağıl evi» nəşriyyatı, 2001. (fəsil 23);<br>3. Coşkun R., Əhmədov F. Strateji idarəetmə. Bakı: "UNEC" Nəşriyyatı, 2023. (fəsil 9). |
| 13 | **Sənaye müəssisələrində strategiyaların formalaşması istiqamətləri.** | Sənaye müəssisələrində strategiyaların seçilməsi və reallaşdırılması mexanizmi. Sənaye müəssisələrində strateji vəzifələrin müəyyənləşdirilməsi məsələləri. Sənaye müəssisələrində uzunmüddətli idarəetmə qərarlarının strateji faydalılığının müəyyən edilməsi prinsipləri. Sənaye müəssisələrində iqtisadi strategiyaların tərkib hissələri. Sənaye müəssisələrində insan resurslarının idarə edilməsi strategiyası. | 1. Şahbazov K.A., Məmmədov M.H., Həsənov H.S. Menecment. Bakı: «Təhsil» EİM, 2005. (fəsil 19);<br>2. Quliyev T. Ə. Menecmentin (idrəetmənin) əsasları. Bakı: «Nağıl evi» nəşriyyatı, 2001. (fəsil 23); |

| | | | |
|---|---|---|---|
| 14 | **Təşkilatdaxili münaqişə və müqavimətlərin həll edilməsi strategiyası.** | Strateji menecmentdə münaqişələrin yeri və rolu. Münaqişələrin əmələ gəlmə səbəblərinin müəyyənləşdirilməsi istiqamətləri. Strateji menecmentdə münaqişələrin həll edilməsi üsulları. Strateji menecmentdə müqavimətlərin əhəmiyyəti. Strateji menecmentdə müqavimətlərin səciyyəvi cəhətləri. | 1. Şahbazov K.A., Məmmədov M.H., Həsənov H.S. Menecment. Bakı: «Təhsil» EİM, 2005. (fəsil 19);<br>2. Quliyev T. Ə. Menecmentin (idrəetmənin) əsasları. Bakı: «Nağıl evi» nəşriyyatı, 2001. (fəsil 23); |
| 15 | **Strateji idarəetmədə korporativ mədəniyyət.** | Korporativ mədəniyyətinin mahiyyəti və məzmunu. Sənaye müəssisələrində strategiyaya uyğun korporativ mədəniyyətin formalaşdırılması mexanizmi. Sənaye müəssisələrində liderlərin əsas xarakterik xüsusiyyətləri. Strateji menecmet və korporativ mədəniyyət arasında uyğunluğunu yaradılması məsələləri. Sənaye müəsisələrində starteji liderliyin həyata keçirilməsi mexanizmi. | 1. Şahbazov K.A., Məmmədov M.H., Həsənov H.S. Menecment. Bakı: «Təhsil» EİM, 2005. (fəsil 19);<br>2. Quliyev T. Ə. Menecmentin (idrəetmənin) əsasları. Bakı: «Nağıl evi» nəşriyyatı, 2001. (fəsil 23);<br>3. Coşkun R., Əhmədov F. Strateji idarəetmə. Bakı: "UNEC" Nəşriyyatı, 2023. (fəsil 12). |
| | **Yekun imtahan** | | |

## X. Seminar-məşğələlər: hazırlıq və qiymətləndirmə

Seminar-məşğələ dərslərində tələbə öz fikirlərini məntiqi ardıcıllıqla ifadə və izah etməyi, habelə arqumentlərlə əsaslandırmağı bacarmalıdır. Buna nail olmaq üçün tələbə:

1) Seminar məşğələsinin hər bir mövzusu üzrə müzakirəyə çıxarılan suallarla diqqətlə tanış olmalı;
2) Müvafiq mühazirə materiallarını diqqətlə öyrənməli;
3) Mövzu üzrə tövsiyə edilən ədəbiyyatı oxumalı və öyrənməli;
4) Seminar məşğələsində müzakirəyə çıxarılan hər bir sual üzrə qısa çıxış hazırlamalı;
5) Mövzu üzrə verilən praktik tapşırıqları və məsələləri yerinə yetirməklə praktik bacarıqlara yiyələnməlidir.

Tələbənin məşğələdəki hər bir cavabı 10 ballıq sistem üzrə 0-10 bal arasında (maksimum10 bal olmaqla) qiymətləndirilir. Semestrin sonunda smestr ərzində tələbənin bütün cavab balları toplanır və tələbənin cavablarının ümumi sayına bölünməklə orta qiymət (bal) hesablanır.

## XI. Fənnüzrəkurs işi

Fənnüzrəkursişinəzərdətutulmayıb.

## XII. Sərbəstişlər:tələblərvəqiymətləndirmə

Semestr ərzində tələbələrə 1 (10 ballıq), 2 (hər biri 5 ballıq) yaxud 10 (hər biri 1 ballıq) sərbəst iş tapşırığı verilir. Sərbəst işlər tələbələr tərəfindən təkbaşına və ya qrup işi formasında işlənə bilər. Sərbəst iş çap və ya elektron formada, yaxud əlyazma şəklində təhvil verilir.

Sərbəstişlərinqiymətləndirilməsionlarınsayındanasılıolaraqhəyatakeçirilir:

- 1 ballıq sərbəst işlər hər bir tələbə tərəfindən fərdi qaydada yerinə yetirilir. Bu işlər bir qayda olaraq fənndə tədris olunan mövzulara aid olur. Tələbələr müvafiq mövzunu öyrənməli və həmin mövzu ilə bağlı özlərinin fikirlərini sərbəst şəkildə (esse kimi) yazmalıdırlar. Belə sərbəst işlərin hər biri yazılı formada - word faylı formatında (şrift 12), həcmiənazı1,5-2 səhifə həcmində olmaqla (amma 4 səhifədənçoxolmamaqla) - tələbənin fərdi kabinetinə yüklənir. Məzmunundan asılı olaraq belə işlər «0» və ya «1» balla qiymətləndirilir. İş «0» balla qiymətləndirildikdə müəllim bunun səbəbini izah etməlidir;
- 5 və 10 ballıq sərbəst işlər tələbələrə fərdi və ya qrup işi kimi tapşırıla bilər. Belə işlərdə konkret mövzular üzrəaraşdırmanınaparılmasıyaxudreferatınişlənilməsitələb oluna bilər. Belə araşdırmalar

zamanı tələbələr fənnin mövzularından öyrəndikləri bilikləri və əldə etdikləri bacarıqları həmin tədqiqatlarda istifadə (tətbiq) etməyə çalışmalıdırlar. Araşdırmalar zamanı tələbələr ortaya çıxan çətinlikləri müəllimlə müzakirə edə və ondan məsləhət ala bilərlər. Belə işlər yazılı şəkildə word faylı formatında yaxud Power Point formatında təqdimat formasında, qrupun bütün üzvlərinin adı qeyd edilməklə, qrupun hər bir üzvünün fərdi kabinetinə yüklənir. Bu cür işlər, müvafiq olaraq, 0-dan 5-dək yaxud 0- dan 10-dək balla qiymətləndirilir. Sərbəst işin (araşdırmanın) hazırlanmasında qrup üzvlərinin fərdi töhfələri fərqli olarsa, qiymətləndirmədə bu nəzərə alınır. Aşağı balla qiymətləndirmələr zamanı müəllim bunun səbəbini tələbənin fərdi kabinetində izah edir.

Sərbəst işlərin yerinə yetirilməsi Universitetdə müəyyən edilmiş qaydalar çərçivəsində fənni tədris edən müəllimlə tələbələr arasında əldə olunan razılığa uyğun olaraq həyata keçirilir. Sərbəst işlərin qiymətləndirilməsində şəffaflığı təmin etmək müəllimin vəzifə borcudur.

**XIII. Dərsədavamiyyət**

Tələbə bütün mühazirə və seminar dərslərində fəal iştirak etməlidir. Tələbənin dərsə davamiyyəti 10 ballıq sistem üzrə qiymətləndirilir. Tələbənin iştirak etmədiyi dərslərin sayı onun davamiyyət qiymətinə (balına) təsir edir: buraxılmış hər 3 dərs (6 saat) 1 balın itirilməsi ilə nəticələnir. Tələbə fənn üzrə ümumi tədris yükünün 25%-dən çox (14 saatdan çox) dərs buraxarsa, o, yekun imtahana buraxılmır. Bu halda tələbə bu fəndən krediti qazanmır və onun fənn üzrə akademik borcu qalır

**XIV. Aralıqqiymətləndirmə**

Fənnin tədrisi prosesində tələbənin dərslərdəki cari fəallığı (mühazirədəki fəallıq, seminar-məşğələdə cavabları, qrup işlərində iştirakı və s.) 10 ballıq sistemlə 0-10 bal arasında qiymətləndirilir.

Fənnin tədrisi prosesində tələbənin əldə etdiyi bilik və bacarıqları 2 dəfə kollokvium keçirilməklə qiymətləndirilir. Kollokviumlar, müvafiq olaraq, tədrisin birinci və ikinci ayı başa çatdıqdan sonra yalnız həmin dövrdə keçirilən mövzuları əhatə edən suallar əsasında təşkil olunur. Kollokvimlar test üsulu formasında keçirilir.

Hər kollokviumda tələbənin bilikləri 10 ballıq sistem üzrə 0-10 bal arasında (maksimum 10 bal) qiymətləndirilir. Tələbə kollokviumda iştirak etmədikdə jurnalda“0” (sıfır) bal qeyd olunur.

**XV. Yekunimtahan**

Fənnin tədrisinin sonunda bir dəfə yekun imtahan təşkil olunur. Tələbənin imtahandakı cavabı0-50 balaralığında (maksimum50 bal) qiymətləndirilə bilər. İmtahanyazılı formada yaxud test qaydasında təşkil olunur. Fənn üzrə imtahan sualları yaxud testlər mühazirə mətnləri və məşğələ dərslərinin məzmununa uyğun olaraq tərtib edilir.

Yekun imtahanda tələbə minimum17 baltoplamazsa, onda imtahana qədər yığılanballar toplanmır, tələbə bu fəndən krediti qazanmır və onun fənn üzrə akademik borcu qalır.

İmtahanın nəticələrinin qiymətləndirilməsi ilə bağlı tələbənin hər-hansı şikayəti olarsa, tələbə Universitetdə müəyyən olunmuş ümumi qaydalar əsasında Apellyasiya Komissiyasına müraciət edə bilər.

**XVI. Fənn üzrə yekun qiymətləndirmə**

Fənn üzrə tələbələrin yekun biliyi 100 ballıq system üzrə qiymətləndirirlir. Balların maksimum miqdarı -100 baldır.

Yekun imtahandan sonar tələbənin fənn üzrə topladığı bütün ballar toplanır və yekun qiymət (bal) hesablanır.

| **İstiqamət** | **Ballar** | **Faiz** |
|---|---|---|
| İmtahan (final) | 50 | 50 % |
| İmtahan (aralıq) | 30 | 30 % |
| Seminar (məşğələ) və ya laborator dərslərin nəticələrinə görə | 20 | 20 % |
| **Cəmi:** | **100** | **100 %** |

Fənn üzrə semestr ərzində (imtahana qədərvə imtahanda) tələbənin topladığı balın yekun miqdarına görə onun yekun biliyi aşağıdakı kimi qiymətləndirilir:

51baldan aşağı olduqda -“qeyri-kafi” – **F**

51-60bal -“qənaətbəxş” –**E**
61-70bal -“kafi” –**D**
71-80bal -“yaxşı” –**C**
81-90bal -“çoxyaxşı” –**B**
91-100bal -“əla” –**A**

Tələbənin topladığı yekun bal 51 baldan aşağı olduqda (yəni onun biliyi “qeyri-kafi” qiymətləndirildikdə) tələbə bu fəndən krediti qazanmır və onun fənn üzrə akademik borcu qalır.

**Qeyd:** sillabus 4-5 səhifə həcmində ola bilər.

**Mənbələr:**

Sillabusun məzmunu və strukturu ilə bağlı təklif olunan bu sənədin hazırlanması zamanı aşağıdakı mənbələrdən istifadə olunmuşdur:

**http://lib.bbu.edu.az/files/book/999.pdf/ T. Quliyev Menecmentin (idarəetmənin) əsasları**
**https://www.academia.edu/41203720/MENECMENT_DƏRSLİK K.Şahbazov və digərləri**
**http://lib.bbu.edu.az/files/book/3.pdf. İ.Abbasov, R.Sadıqov Menecment**
**https://conferences.az/uploads/file/d2575-strateji-idareetme-kitab.pdf**

**Tərtib etdi:**  **i.ü.f.d., dosent Rüstəmov Pərviz Hacı oğlu**